# Tәlatümlәr içindә keçәn ömür...

**Azәrbaycan әdәbiyyatında yaradıcısı olduğu mәnsur şeir janrının ustası kimi tanınır. Eyni zamanda oxucular tәrәfindәn maraqla qarşılanan oçerk, povest vә hekayәlәrin müәllifidir. Bәdii әsәrlәrinin mövzuları da fәrqlidir.**

Xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun bәdii qәhrәmanları hәyatın enişli-yoxuşlu yollarında çәtin sınaqlarla üzlәşmiş insanlardır. Doxsan ilә yaxın ömür sürmüş yazıçının özü dә hәyatı әzab-әziyyәtlәr, keşmәkeşlәr, tәlatümlәr içәrisindә keçmiş ömür yolu ilә onlardan geri qalmır...

## "Dönmәzlәr"dәn biri...

Gülhüseyn Hüseynoğlu imzası ilә tanınan Gülhüseyn Hüseyn oğlu Abdullayev 1923-cü il oktyabrın 16-da Masallı rayonunun Mollaoba kәndindә dünyaya gәldi. Ailәsi ilә birlikdә Bakıya köçәndә üç yaşındaydı. Paytaxtda tәhsil almağa başladı. 1942-ci ildә orta mәktәbi bitirdi. Azәrbaycan Dövlәt Universitetinin (indiki Bakı Dövlәt Universiteti) Filologiya fakültәsinә daxil oldu. Hәlә tәlәbә ikәn, 1942-ci ildә "Kommunist" qәzeti redaksiyasında әdәbi işçi kimi әmәk fәaliyyәtinә başladı. 1945-1947-ci illәrdә "Әdәbiyyat qәzeti" redaksiyasında, 1947-1948-ci illәrdә Gәnc Tamaşaçılar Teatrının pedaqoji şöbәsindә çalışdı.

Bәdii әsәrlәri dәrc olunmağa başlayanda da o, hәlә tәlәbәydi. 1944-cü ildә "Ana" adlı ilk hekayәsi, 1946-cı ildә isә "Bәnövşә әfsanәsi" adlı ilk mәnsur şeiri işıq üzü gördü. Әdәbi yaradıcılığını davam etdirdi. Özünәmәxsus üslubu, dәstxәti ilә seçilmәyi, tanınmağı bacardı.

Ali tәhsilini başa vurduğu il - 1947-ci ildә universitetin aspiranturasına qәbul oldu. Hәm elmi, hәm dә bәdii yaradıcılıqla mәşğul olmaq üçün istedadı, sonsuz arzuları, tükәnmәz enerjisi vardı. Ancaq qәlbindә bir fırtına dolaşırdı... Gülhüseyn Hüseynoğlu tәlәbә vaxtı - 1942-ci ildә sovet rejimi ilә mübarizә vә Azәrbaycanın müstәqilliyi naminә yaradılan antisovet "İldırım" tәşkilatının qurucularından vә әn fәal üzlәrindәn biri idi. Tәşkilat hәmçinin 1937-1938-ci illәrdә hәbs olunub xalq düşmәni kimi damğalanan vә Sibirә göndәrilәn, güllәlәnәn yazıçıların işinә yenidәn baxılması, onlara bәraәt verilmәsinә nail olmaq, Azәrbaycan türkcәsini dövlәt dili sәviyyәsinә qaldırmaq mәsәlәlәrini dә mәqsәdinә çevirmişdi. Gülhüseyn Hüseynoğlu "İldırım" tәşkilatının daxilindә yeganә yazıçı olaraq, xalq içindә tәbliğat işi aparmalı idi.



Tәşkilatın üzvlәri bir müddәt sonra şair Sәmәd Vurğuna mәktub yazmaq qәrarına gәldilәr. Adı mәşhur sovet şairlәri sırasında çәkilәn azәrbaycanlı şairdәn "İldırım" tәşkilatına qoşulmasını istәyirdilәr. Mәktubu Gülhüseyn Hüseynoğlunun diktәsi ilә İsmixan Rәhimov çap hәrflәrinә bәnzәr xәtlә yazdı. İmzaları isә "Dönmәzlәr" oldu. Әlyazması ilә olmadığından әlә keçә bilәcәyi halda mәktubun onları әlә vermәyәcәyinә ümidlәri vardı. Ancaq mәktub tәhlükәsizlik xidmәtinә çatdırıldıqdan sonra belә olmadı...

1945-ci ildә bütün ali mәktәblәrdә tәlәbәlәr özlәri dә bilmәdәn yoxlama yazı işi adı ilә, әslindә, istintaqa çәkildilәr. Sovet İttifaqında o vaxtlar Xәttatlıq elmi yaxşı inkişaf etmişdi. Odur ki, İsmixan Rәhimovun xәttini minlәrlә tәlәbә arasından seçmәk mümkün oldu. Doqquz ay izlәdikdәn sonra onu hәbs etdilәr vә işgәncә dolu sorğu-suallara başladılar. İsmixan Rәhimovdan sonra Gülhüseyn Hüseynoğlu vә tәşkilatın digәr üzvlәri dә hәbs edildilәr. Cәzaları ağır oldu. Mәhkәmәnin qәrarı ilә "İldırım" tәşkilatının üzlәrindәn üçünә - İsmixan Rәhimov, Gülhüseyn Hüseynoğlu vә Hacı Zeynalova güllәlәnmә hökmü verildi. Talelәri üzlәrinә güldü, hökmdәn bir qәdәr әvvәl SSRİ-dә ölüm cәzası müvәqqәti lәğv olunmuşdu. Onlara verilәn güllәlәnmә hökmü iyirmi beş il hәbslә әvәz olundu. Tәşkilatın hәbsdә olan digәr üzvlәrinә isә on il hәbs cәzası verildi.

## Unudulmazlıq ünvanı

Ölkәdә şәxsiyyәtә pәrәstiş dövrünün davam etdiyi ağır günlәrdә iyirmi beş il hәbs cәzası almış Gülhüseyn Hüseynoğlu Sibirә sürgünә göndәrildi. Vәtәninin azadlığını arzulayan, әdalәtin bәrqәrar olunmasına çalışan gәnc yazıçının ağır mәhkumluq hәyatı başladı. Әli qәlәm tutmalı, bir-birindәn maraqlı әsәrlәr yazmalı ikәn, Tayşet vә Bodaybo arasında ağac kәsmәli oldu. Hәbsxanada sıxıntılar içәrisindә keçib gedәn illәrindә o, yazmaq imkanından mәhrum idi. Әzab-әziyyәt içәrisindә ötüb gedәn günlәrinin xatirәlәrini yaddaşına köçürürdü.

Stalinin ölümü ilә şәxsiyyәtә pәrәstiş dövrü başa çatdı. Bir çox mәsәlә kimi "İldırım"çıların da işinә yenidәn baxıldı. 1955-ci ilin mayında onlar doğma ocaqlarına geri dönә bildilәr.

Gülhüseyn Hüseynoğluna 1956-cı ildә tam bәraәt verildi. Hәyatı yenidәn mәcrasına düşdü. Azәrbaycan Dövlәt Universitetinin aspiranturasına bәrpa olundu. 1957-ci ildә bu universitetdә pedaqoq kimi işә başladı. O vaxtdan müәllimlik çoxşaxәli fәaliyyәtindә әhәmiyyәtli yerlәrdәn birini tutdu. Gülhüseyn Hüseynoğlu universitetin Filologiya fakültәsindә Müasir Azәrbaycan Sovet әdәbiyyatı kafedrasında müәllim, baş müәllim, dosent vә professor vәzifәlәrindә çalışdı.

1958-ci ildәn Azәrbaycan Yazıçılar Birliyinin üzvü oldu. Sonralar Azәrbaycan Yazıçılar İttifaqının V qurultayından ömrünün sonunadәk birliyin idarә heyәtinin üzvü oldu vә nәsr bölmәsinә rәhbәrlik etdi. Azәrbaycan Yazıçılar Birliyinin X qurultayında birliyin nәsr bölmәsinin rәhbәri seçildi.

Gülhüseyn Hüseynoğlu istedadlı şair, yazıçı olmaqla bәrabәr, hәm dә bacarıqlı, zәhmәtkeş, cәfakeş әdәbiyyatşünas idi. Әdәbiyyatşünas alim Gülhüseyn Hüseynoğlu Mikayıl Müşfiq haqqında ilk monoqrafiyanın, ilk dissertasiyanın vә ali mәktәblәr üçün ilk dәrs vәsaitinin müәllifidir. O, böyük bir sevgi ilә, vurğunluqla Mikayıl Müşfiq irsini tәdqiq edirdi. İstedadlı şairin cavan yaşında sovet repressiyasının qurbanı olmasına tәәssüflәnir, adı çәkilәndә gözlәri dolurdu.

Otuza yaxın kitabı çap edildi. Yazıçının "Nigarançılığın sonu", "Ay nur çilәyәndә", "Mәnsur şeirlәr", "İtmiş keçi", "İnsan", "Gözәl", Sübh çağı", "Mücrü", "Seçilmiş әsәrlәri", "Ömrümüz boyu", "Qatar gedir", "Çәtin yol", "Yana-yana", "Mәhәbbәtdirmi bu?", "Müşfiqin yolu", "Müsfiq", "Etiraf", "Bir ömrün çıraqları" adlı bәdii kitabları, monoqrafiyası, dәrs vәsaiti vә yüzlәrlә elmi-publistik mәqalәsi geniş oxucu kütlәsinә tәqdim edildi. Әsәrlәri keçmiş SSRİ xalqlarının dillәrinә tәrcümә olundu.

Azәrbaycan әdәbiyyatının inkişafında xidmәtlәrinә görә Gülhüseyn Hüseynoğlu bir sıra mükafatlara vә tәltiflәrә, fәxri ada layiq görüldü.

Xalq yazıçısı, filologiya elmlәri doktoru, professor Gülhüseyn Hüseynoğlu 2013-cü il iyulun 8-dә vәfat etdi. Yaddaşlardan silinmәyәn xatirәlәri, maraqla oxunan bәdii әsәrlәri, dәyәrli faktlarla zәngin elmi әsәrlәri adını, imzasını unudulmaz etdi.

*Zöhrә FӘRӘCOVA,*
*"Azәrbaycan"*

Azәrbaycan.- 2023.- 17 oktyabr.- S.17.